# 70-dən o yana...

*Dərgimizin ən yaxın dostlarından biri – söz-sənət sərrafı, tanınmış qələm yiyəsi, mənəm jurnalist İntiqam Mehdizadə ömrünün 70-ci pilləsinə varıb nəfəsini dərdi. Əslində yazıçı İntiqamı yaxından tanıtmağa ehtiyac yoxdur. Çünki, dünyanın sevincindən-qəmindən (ən çox da qəmindən), içərisində yaşadığımız həyatın ağla-qaralı rənglərindən, şəhərdə-kənddə, dağda-aranda, yolda-rizdə rastına çıxan insanlardan bəhs edən hekayələri, oçerkləri, radio-söhbətləri ilə İntiqam oxucuların, dinləyicilərin rəğbətini çoxdan qazanıb...*

*Güman edirik ki, jurnalist Rübabə Səməndərin onunla söhbəti İ.Mehdizadənin ömür yoluna, düşüncə tərzinə, söz-sənət gizlinlərinə az da olsa işıq sala biləcəkdir.*

İntiqam müəllimin radio-efirinə, mətbuat səhifələrinə gətirdiyi özünəməxsus forma, təhkiyə məqamlarını bildiyimdən, mən də bu söhbətimdə həmin yolu tutmağa çalışdım və yazıçı, publisist, jurnalist İntiqam Mehdizadə haqda yazımı üç qismə ayırdım...



**İntiqam Mehdizadə haqda yazılanlardan...**

*"Qəribə şəxsiyyətdi. Onun başına həyatda elə hadisələr gəlib ki, özlüyümüzdə düşünmüşük ki, bir də özünə gəlməz. Amma hər dəfə bizi heyrətə gətirib; onun dəyanətinə, ekstremal şəraitdə özünü apara bilmək məharətinə həsəd aparmışam..."* ***("Uzaqlardan gələn adam". Rafiq Səməndər).***

*"Bir xatirəm var onunla bağlı. Dostumuz, mərhum şair Şəmşad Rzanın qızının toyu idi. Yadımdadı, o dövrdə Çeçenistan hadisələri faciəvi həddə çatmışdı, general Dudayev həlak olmuşdu. Sən demə, bu, İntiqam müəllimə bərk təsir edibmiş. Və bu da Şəmşadın qızının toyunda üzə çıxdı.*

*Amma necə? İntiqam müəllimə təbrik üçün söz verildi. O, əvvəlcə çox parlaq, yaddaqalan bir sağlıq söylədi, sondasa dedi ki, mən ömrümdə toylarda "Ləzginka" oynamamışam, amma bu axşam oynayacam və bu rəqsi bəylə gəlinin şərəfinə, bir də general Dudayevin ruhuna ithaf edəcəm.*

*Və başladı, nə başladı! Toy əhli bütün məşğuliyyətini bir kənara qoyub İntiqam müəllimin rəqsinə qapılmışdı. Arada mən də*

*ortaya atılıb onu tək qoymaq istəmədim. Amma süzə-süzə mənə qayıtdı ki: "Sən çıx, sənlik döyül". Mən sonra başa düşdüm ki, onunla qabaq-qənşər oynamaq hər adamın işi deyil. İntiqam müəllimin pencəyini çıxarıb musiqiçilərin üstünə ataraq başladığı o rəqs bu günəcən yadımdan çıxmır. Bir də gəlin atası Şəmşad Rzanın İntiqam müəllimin boynunu qucaqlayıb öpməyi..."* ***("Dərviş könüllü gənc". Əhməd Oğuz).***

*"...İntiqamın əsas keyfiyyətlərindən biri istedadlı adam olmasıdı. Söhbət onun təkcə yazıçı, jurnalist kimi istedadından getmir. İntiqam ümumiyyətlə bir fərd, bir insan kimi istedadlıdı. İntiqam haqda ilk ağlıma gələn bunlardı..."* ***("Ardıcıl adam". Ramiz Rövşən).***

**İntiqam Mehdizadə mənimçün kimdi?**

Əvvəla atam Səməndər Rzayevin ən yaxın dostu, ailəmizə sadiq insanlardan biri, xətrini dünyalar qədər istədiyim, özümə əmi saydığım bir adam... Bundan sonrasa radio-jurnalistikada mənə ilk kövrək addımlarımı atmaqda kömək edən, məndə radioya sevgi yaradan peşəkar jurnalist....

İllər öncə İntiqam müəllimin mənə dediyi sözləri ömürlük qulağımdan sırğa eləyib asdım... O vaxt məktəbdə oxuyurdum. İnşa yazmağı tapşırmışdı müəllimimiz. İntiqam müəllim bizə qonaq gəlmişdi. İnşalarımı həmişə atama oxudardım. Bu dəfə də atamın yanına gəldim ki, inşamı oxuyub fikrini bildirsin. Atamsa: "Ver İntiqam əmin oxusun, o, yazıçıdı," – dedi. İntiqam müəllim inşanı diqqətlə oxuyub mənə dedi: "Qızım, sənə bir əmi məsləhəti verim, gələcəkdə yazı yazanda həmişə nəzərə al. Çalış heç vaxt bir cümlədə eyni sözü iki dəfə işlətməyəsən". O sözlər bu günəcən mənimçün dəyişməz bir qanun oldu...

**İntiqam Mehdizadə ilə müsahibədən...**

***– İntiqam müəllim, 70 illik ömrünüzdə ən çox yadınızda qalan, tez-tez xatırladığınız anlar, məqamlar hansılardı?***

– Söhbətin başlanğıcı üçün maraqlı, orujinal, ola bilsin kimlərçünsə hətta yersiz sualdı. Amma var, yaddaşımda, xatirimdə qalan belə məqamlar çoxdu və mən onları tez-tez sanki yenidən yaşayıram. Bunlar daha çox qarşıma çıxan, gördüyüm, duyduğum kədərli, sarsıntılı səhnələr, olaylardı...

***– Kifayət qədər geniş yaradıcılığınız var. Həm mətbuat səhifələrində rast gəldiyim yazılarınız, həm də radiomuzun qızıl fondunda qorunan verilişləriniz sizi geniş oxucu və dinləyici auditoriyasına tanıtdırıb – sevdirib. Sizi yazmağa, ya mikrofon qabağına çıxmağa ilhamlandıran, təsirləndirən nədi?***

– İlhama qalsa, o həmişə var. Qaldı təsirlənməyə, hə, mən təsirlənməsəm, qələm əlimdə laxlayar. Təsirlənməyimsə söhbətimizin əvvəlində vurğuladığım kədərli məqamları xatırlayanda, yaxud belə məqamlarla həyatda qarşılaşandan sonra baş verir. Məsələn, parlaq istedad sayəsində ərsəyə gələn hər bir nəsnə – tutaq ki, gözəl ifa, şeir, nəsr nümunəsi, rəsm əsəri, fotoşəkil məni yerimdən oynadır. Çünki mən bilirəm bunlar nə boyda əzab-əziyyət bahasına başa gəlir. Yaşından, cinsindən asılı olmayaraq kiminsə ürəkdən ağlamasına sakit baxa bilmirəm, həmən gizlincə ona qoşuluram. Ən çox da körpə uşaqların ağlaması mənə ağır təsir bağışlayır. Çünki onların dili yoxdu axı, dərdlərini deyələr. Belə məqamlarda harda oluramsa-olum, barmaqlarım yazmaqdan yana gizildəyir.

***– İntiqam müəllim, əgər jurnalist olmasaydız, hansı peşəni seçərdiz?***

– Mütləq bəstəkar olardım! Təsirləndiyim anda içimdə elə melodiyalar yaranır, elə musiqi əsərləri "bəstələyir", elə şövqlə oxuyuram ki, onların tayı-bərabəri yoxdu. Bəzən də yuxularımda düzüb-qoşur, zümzümə edirəm. Sonra da unuduram. Notdan başım çıxsaydı, daha çox populyarlıq qazanar, özümə indikindən daha yaxşı gün-güzəran qurardım.

***– Foto albomunuza baxanda 1965-ci ildə, 20 yaşında çəkdirdiyiniz bir fotoya rast***

***gəldim. O vaxtkı gənc İntiqam bu günkü İntiqam əmidən çox fərqlənir. O zamandan 50 il ötür.Bu günkü İntiqam o zamankı İntiqama baxanda hansı hissləri keçirir?***

– O gəncliyi, o cavanlığı daim yaradıcılıq axtarışlarında fota verdiyim illər apardı. Rübabə, sən məni lap şübhəyə saldın. Qoy bir güzgüdə özümə baxım (bu zarafatdan sonra gülür).

***– İndisə, bayaq dediyiniz o kədərə qayıdaq. Bu yaxınlarda həyat yoldaşınız Züleyxa xanımın vəfatından sonra imzanız çox seyrək gözə dəyir, hətta deyərdim görünmür...***

– O gedəli çox ağır sarsıntılar yaşadım. Matəmli gecələrimdə birdən yerimdən dik atılıb qələmə pənah gətirir, öz dilimdən yox, onun dilindən bayatılar, ağılar, oxşamalar yazırdım. Özümə təlqin eləmişdim ki, əyər sağ olsaydı, bunları o özü yazar, özü deyərdi. Sonra onun – mənim yazdıqlarımı oxuyanda dəhşətli duyğular yaşayır, hissə qapılırdım. Yəqin hələ uzun müddət o əzablı düşüncələrdən qurtula bilməyəcəm. Gərək o ağrıdan, o kədər yüksəkliyindən aşağı enəm ki, yaza biləm də... Bu mümkün olacaqmı, bilmirəm. Bu fəlakət mənim qapımı döyüb axı...

***– Ömrünüzün ahıllıq çağına qədəm qoyursuz. Tanrıdan sizə uzun ömür arzulayıram. Amma, ölüm onsuz da haqdı. Qorxuzurmu bu sizi?***

– Vaqif Səmədoğlu demişkən, görmədiyim şeydən niyə qorxmalıyam ki? Mən gələcəkdən yox, keçmişdən, daha doğrusu, keçmişdəkiləri qoruyub saxlaya bilməyəcəyimdən qorxuram. Nə yaxşı ki, zamanında gözüm görüb qulağım eşitdiklərini, farslar demiş "bə qədri-qüvvə" qələmə ala bilmişəm. Amma çox azdı bunlar. Ömür, yaş, sosial, mənzil-məişət problemləri ucbatından ürəyimdəkilərin elliyini boşalda bilməmişəm. Bax, bəzən boş-bekar qalıb fəaliyyətsiz yola saldığım o keçmişimdən qorxuram. Qorxuram ki, üstündən adlayıb keçdiyim boşluqlar adıma yazıla bilər. Amma hər halda mənə ümidlər bəxş edən məqamlar da yox deyil. Çünki yazılarımla keçmişimizdən, yaşantılarımızdan gələcəyə nələrisə ötürə bilmişəm, Uca Yaradan izn versə, nə qədər canımda can var, 70-dən o yana yenə ötürəcəm.

Qaldı ölümə... Ölüm haqdı, intəhası ölüm də var, ölüm də. Bir var mənəviyyatlı insanın ölümü, bir də var alçağın, mənəviyyatsızın ölümü. Bəli, mənəviyyat dediyin hər kəsə nəsib olmur və gəldiyim əqidəyə görə onun nə olduğunu yalnız yaradıcı şəxsiyyətlər dərk edir. Şairlər, filosoflar, bəstəkarlar, rəssamlar, heykəltəraşlar. Bir sözlə, dünyaya gözəlliklər gətirən, insan sirlərinin dərin qatlarına varanlar. Yazıları ilə kimləri, nələrisə tarixin yaddaşına köçürür, əbədiyyətə qovuşdururlar. Bundan böyük missiya olarmı?! Amma bu məsələnin bir qəliz tərəfi də var ki, bəzən mənəviyyatsızlıq, əxlaqsızlıq da tarixdə "yaşamaq" hüququ qazanır. Uca Yaradansa öz dərgahında yalnız bəşərin mənəvi yüksəlişinə xidmət edənlərə gen-bol yer verir... Kim bilə, orasını biz bilə bilmərik.

***– İntiqam müəllim, bu qədər zəhmətin müqabilində bu çağacan heç bir fəxri adınız da yoxdur. Bu sizə yer eləmir ki?***

– Eləyir, niyə eləmir... Jurnalist ömrümün ərzində rast gəldiyim yüzlərlə həmsöhbətimə bu sayaq suallar tuşlamaq ağlıma gəlməyib. O ki, qaldı son sualına, o vaxt Teleradionun 80 illik yubileyində fəxri adlara layiq görülənlərin az qala yüz nəfərlik siyahısində adımı görməyən rəhmətlik həyat yoldaşım eyzən sənin kimi bu sualı vermişdi mənə. O vaxt ona verdiyim cavabı təkrar edirəm: orası mənlik deyil.

***Rübabə SƏMƏNDƏR***

**Elə bu sayımızda, "Pərdənin o üzü"ndə siz İntiqam Mehdizadənin apardığı sorğulardan biri ilə tanış ola bilərsiniz. Onu da deyək ki, həmin sorğu – xalq artisti Məlik Dadaşovun ən son radio – müsahibəsi oldu...**